*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2023, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 87-95* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2023.1.87*

# Kamran Məmmədovun elmi irsində satira məsələləri

**Gülbəniz Babayeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: gulbeniz-babayeva@mail.ru

**Annotasiya.** Məqalədə görkəmli ədəbiyyatşünas alim Kamran Məmmədovun çoxşaxəli elmi yardıcılığında xüsusi yer tutan satira ilə bağlı tədqiqatları təhlil edilir. Kamran Məmmədovun XIX-XX əsrlər Azərbaycan ədəbiyyatına dair monoqrafik tədqiqatları və çoxlu ədəbi-tənqidi məqalələri vardır. Alimin elmi fəaliyyətində satira ilə bağlı sanballı tədqiqatları xüsusi yer tutur. "XIX əsr Azərbaycan şeirində satira" və "XX əsr Azərbaycan şeirində gülüş" adlı monoqrafiyaları ədəbiyyatşünaslığımızın ən dəyərli nümunələri kimi çağdaş dövrümüzdə də öz aktuallığını qoruyub saxlayır. Kamran Məmmədov bu sanballı tədqiqatlarda hər bir satirik janrın özünəməxsus spesifik xüsusiyyətini verir, konkret nümunələr əsasında həm folklorda, həm də klassik ədəbiyyatda işlənən satirik janrları fikir süzgəcindən keçirir.

Kamran Məmmədov XIX-XX əsr Azərbaycan satirasının mənbəyinin birinin də klassik yazılı ədəbiyyat olduğunu diqqətə çatdırır. Müəllif yazılı ədəbiyyat deyərkən təkcə Şərq ədəbiyyatının tərkib hissəsi olan Azərbaycan ədəbiyyatının Xaqani, Nizami, Nəsimi, Füzuli kimi şairlərini deyil, bunlarla yanaşı Firdovsi, Sədi, Hafiz kimi böyük söz ustadlarını da nəzərdə tutur və qeyd edir ki, bu sənətkarlar olmasa, Şərq şeiri çox sönük görünərdi. Alim eyni zamanda Azərbaycan ədəbiyyatı tarixində realist ədəbi məktəbin formalaşması, mükəmməl estetik-fəlsəfi, nəzəri əsaslarının işlənib hazırlanmasını Mirzə Fətəli Axundovun adı ilə bağlayır.

XX əsr Azərbaycan ədəbiyyatının ən qüvvətli və aparıcı qolunun satira olduğunu vurğulayan Kamran Məmmədov "Molla Nəsrəddin", xüsusilə də M.Ə.Sabir və C.Məmmədquluzadə kimi nəhənglərin simasında satiranın zirvəyə ucalmasını nəzərə çatdırır.

**Açar sözlər**: Kamran Məmmədov, XIX–XX əsr Azərbaycan ədəbiyyatı, M.F.Axundzadə, C.Məmmədquluzadə, M.Ə.Sabir, satira, folklor, klassik ədəbiyyat

**Məqalə tarixçəsi:** göndərilib – 03.04.2023; qəbul edilib – 19.04.2023

# Issues of satire in the scientific heritage of Kamran Mamedov

**Gulbeniz Babayeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi. Azerbaijan.
E-mail: gulbeniz-babayeva@mail.ru

**Abstract.** The article analyzes works related to satire, which have occupied a special place in the scientific work of the famous literary scholar Kamran Mammadov. He is an author of monographic studies and many literary critical articles in the field of Azerbaijani literature of the 19th–20th

centuries. In the scientific activity of the scientist, a special place is represented by significant works related to satire. His monographs “Satire in Azerbaijani poetry of the 19th century” and “Laughter in Azerbaijani poetry of the 20th century” are valuable examples of our literary criticism and remain relevant in our time. In these significant works, Kamran Mammadov cites the specific characteristics of each satirical genre, examines satirical genres through the prism of comprehension based on specific examples from folklore and classical literature.
Kamran Mammadov draws attention to the conclusion that one of the sources of Azerbaijani satire of the 19th–20th centuries is classical written literature. The author included in written literature not only the representatives of Azerbaijani literature being a main part of the oriental liteature such great poets as Khagani, Nizami, Nasimi, Fuzuli, but also means the great Ferdowsi, Saadi, Hafiz, and emphasizes that without them, oriental poetry was would not be so brilliant. The scientist also connects the formation of a realistic literary school, the creation of a strong aesthetic, philosophical and theoretical foundation in the history of Azerbaijani literature with the name of M.F.Akhundov. Kamran Mammadov considers satire to be a powerful and leading branch of Azerbaijani literature of the 20th century, which reached its peak thanks to “Molla Nasreddin”, especially to such outstanding personalities as M.A.Sabir and J.Mammadguluzade.
**Keywords:** Kamran Mamedov, Azerbaijani literature of the 19th–20th centuries, M.F.Akhundzade, J.Mamedguluzade, M.A.Sabir, satire, folklore, classical literature

**Article history:** received – 03.04.2023; accepted − 19.04.2023

## Giriş / *Introduction*

Görkəmli ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Kamran Məmmədov sanballı və monumental tədqiqat əsərləri ilə Azərbaycan elminə böyük töhfələr vermiş, adını ədəbi fikir tariximizin salnaməsinə yazmışdır. Onun zəngin ədəbi irsi çağdaş ədəbiyyatşünaslığımızın ən dəyərli səhifələrini təşkil edir. Kamran Məmmədovun XIX-XX əsrlər Azərbaycan ədəbiyyatına dair monoqrafik tədqiqatları və çoxlu ədəbi-tənqidi məqalələri vardır. Eyni zamanda alim bədii nəsr, xatirə və publisistikaya aid əsərləri ilə də ədəbiyyatımıza töhfələr vermişdir.

Kamran Məmmədov “Əbdürrəhim bəy Haqverdiyev” (Bakı, 1955, 1970), “Qasım bəy Zakir” (Bakı, 1957), “Nəcəf bəy Vəzirov” (Bakı, 1963), “Yuxusuz illər” (Bakı, 1969), “Azərbaycan yazıçılarının həyatından dəqiqələr” (Bakı,1971, 1979), “XIX əsr Azərbaycan şeirində satira” (Bakı, 1975), “Ömrün izi” (Bakı, 1976), “Yusif Vəzir Çəmənzəminli” (Bakı, 1981), “Dünyamız uşaq gözündə” (Bakı, 1983), “XX əsr Azərbaycan gülüşü” (Bakı, 1989), “Nəcəf bəy Vəzirov” (Bakı, 1995) kimi elmi, bədii və publisistik kitabların müəllifidir.

Kamran Məmmədovun elmi fəaliyyətində satira ilə bağlı sanballı tədqiqatları xüsusi yer tutur. “XIX əsr Azərbaycan şeirində satira” və “XX əsr Azərbaycan şeirində gülüş” adlı monoqrafiyaları ədəbiyyatşünaslığımızın ən dəyərli nümunələri kimi çağdaş dövrümüzdə də öz aktuallığını qoruyub saxlayır. Araşdırmaçı çox haqlı olaraq göstərir ki, ədəbiyyatşünaslar Azərbaycan ədəbiyyatında satiranın ideya-bədii mənbələrini və tarixi köklərini təyin etməyə çalışarkən klassik şeir ənənələrini, ictimai həyatın inkişafını, müasir həyatda istismarın və cəmiyyətdə pisliklərin artdığını və başqa bu kimi amilləri göstərdikləri halda, satiranın əsas mənbələrindən birini-şifahi xalq yaradıcılığının müxtəlif janrlarında özünü bariz şəkildə göstərən xalq satirasını ya yaddan çıxarırlar, ya da onu layiqincə qiymətləndirmirlər. Kamran Məmmədov XIX əsr realist Azərbaycan satirasını yaradan səbəblərdən söhbət açarkən bildirir ki, “bu bir tərəfdən dövrlə, həyatla, ictimai-siyasi hadisələrlə bağlıdırsa, ikinci tərəfdən bu satiranın qida aldığı mənbə şifahi xalq yaradıcılığı və klassik ədəbiyyatdır. Şifahi və klassik ədəbiyyatdakı satiranın nə şəkildə, necə təzahür etdiyini bilmədən

XIX əsr və eləcə də XX əsr ədəbiyyatımızdakı satiranın mövqeyini düzgün, obyektiv qiymətləndirmək mümkün deyildir" [6, s.4].

Alim Azərbaycan şifahi və yazılı ədəbiyyatında işlənən satirik aforizm və idiomlar, satirik atalar sözü və məsəllər, atmacalar, qaravəlli, lətifə, satirik nağıl, satirik bayatı, təmsil, həcv, bəhri-təvil, kuplet, meyxana, hərbə-zorba, intermediya, məzhəkə, satirik rübai, satirik qəzəl, taziyanə, parodiya, felyeton, pamflet, komediya, satirik miniatür, satirik hekayə, satirik povest və roman, satirik poema və s. janrlardan söhbət açarkən onların birdən-birə yaranmadığı fikrini irəli sürür. O göstərir ki, bütün bu janrlar tarixi şərait, sinfi ziddiyyətlərin kəskinləşməsi, xalqın ağır həyat və məişət tərzi ilə əlaqədar yaranmış, zaman keçdikcə kök atmış və şaxələnmişdir. Ancaq tarixin hansı mərhələsində yaranmasından asılı olmayaraq bu janrları birləşdirən ümumi bir xüsusiyyət-gülüş hamısında vardır. Tədqiqatçı qeyd edir ki, gülüş qüvvətli və zəif şəkildə, komik və yumorist məzmunda satirik janrların canına hopmuşdur.

Kamran Məmmədov bu sanballı tədqiqatda hər bir satirik janrın özünəməxsus spesifik xüsusiyyətini verir, konkret nümunələr əsasında həm folklorda, həm də klassik ədəbiyyatda işlənən satirik janrları fikir süzgəcindən keçirir. Görkəmli türk yazıçısı Əziz Nesin xalq satirasının, o cümlədən Molla Nəsrəddin lətifələrinin xüsusiyyətlərindən söhbət açarkən yazır: "Xalq satirasının mühüm xüsusiyyətlərindən biri budur ki, o, həyat uğrunda mübarizədə məzlum insanın üstünlük qazanmaq üçün istifadə etdiyi silahdır. Cəmiyyətdəki hakim siniflər bu üstünlüyü maddi olaraq əllərinə keçirmiş olduqları üçün əzilən, istismar edilən, yəni məğlub edilmiş sinif, hakim sinfə qarşı başqa cür və həqiqi üstünlük əldə etmək məqsədi ilə satiranı onlara qarşı silaha çevirir. Bu cür satira siyasi və ictimai nöqteyi-nəzərdən gücsüzlərin güclülərə qarşı istifadə etdikləri üstüngəlmə silahıdır" [2,s.147].

Kamran Məmmədov XIX-XX əsr Azərbaycan satirasının mənbəyinin birinin də klassik yazılı ədəbiyyat olduğunu diqqətə çatdırır. Müəllif yazılı ədəbiyyat deyərkən təkcə Şərq ədəbiyyatının tərkib hissəsi olan Azərbaycan ədəbiyyatının Xaqani, Nizami, Nəsimi, Füzuli deyil, bunlarla yanaşı Firdovsi, Sədi, Hafiz kimi böyük söz ustadlarını da nəzərdə tutur və qeyd edir ki, bu sənətkarlar olmasa , Şərq şeiri çox sönük görünərdi. Tədqiqatçı bir həqiqəti də nəzərə çarpdırır ki, Azərbaycan klassik ədəbiyyatında satiranın hansı əsərlə, kimin yaradıcılığı ilə başlamasını söyləmək çətindir. O da məlumdur ki, ayrı-ayrı dövrlərdə yaranan satiranın özünəməxsus, fərqli cəhətləri vardır. Buna görə də XII əsr Azərbaycan satirası ilə XX əsr satirası, yəni Xaqani satirası ilə Sabir satirası arasında böyük fərqlər vardır. Xaqani yaradıcılığında yaşadığı cəmiyyətin mənfi cəhətlərini, pisliklərini ifşa, üsyankar ruh, kəskin tənqidi münasibət, fikirlərin ifadəsində kinayə, gülüş, eyham, istehza və başqa üsullardan istifadə genişdir. XII əsrdə satiranın həcv, təmsil, hekayə, lətifə janrları çox işlənmişdir. Xaqani, Nizami və onların müasirləri də bu janrlara müraciət etmişlər. Bununla yanaşı, onların bir sıra ciddi, tənqidi əsərlərində də satira ünsürlərini görürük. Tədqiqatçının gəldiyi qənaət budur ki, Xaqani, Nizami və digər klassiklərin satirik yaradıcılığına yaşadıqları dövrün iqtisadi, coğrafi və ictimai-siyasi vəziyyətinin güclü təsiri vardır, eləcə də həmin mərhələdə ədəbiyyatın ideya istiqaməti, spesifik xüsusiyyətləri nəzərə alınmalıdır. O, fikrinin davamında bildirir ki, əgər biz klassik ədəbiyyatımızdakı satiraya Çernışevskinin və ya Dobrolyubovun meyarları ilə yanaşsaq, ciddi elmi nəticələrə deyil, yanlış fikirlərə gəlib çıxa bilərik. Çünki Çernışevski də, Dobrolyubov da satira haqqında nəzəri fikirlərində öncə rus ədəbiyyatının təcrübəsinə istinad etmişlər. Şərqdə, o cümlədən Azərbaycanda başqa janrların, məsələn lirikanın müstəqil, orijinal yolu olduğu kimi, bu yol Avropada, Rusiyada yaranan lirika yolundan tamamilə fərqləndiyi kimi, satiranın da Şərqə məxsus xüsusiyyətləri vardır. Alim göstərir ki, biz Şərq, o cümlədən Azərbaycan satirasını öyrənərkən ona Qərb və Rusiya satirası haqqında söylənmiş hazır fikirlər ölçüsü ilə yanaşır, ədəbiyyatımızın keçdiyi müstəqil, çoxəsrlik tarixini, eləcə də Şərq poetikasını yaddan çıxarır, öz əlimizlə zəngin məzmunlu və rəngarəng formalı ədəbiyyatımıza bir kasadlıq gətiririk. "Bu fikirləri klassik ədəbiyyatımızdakı satira haqqında da söyləmək olar. Bu

satira Şərqin zəngin ədəbi irsindən öyrənərək, təsirlənərək qol-qanad açmış, ondakı ən gözəl xüsusiyyətləri mənimsəyərək, XX əsrdə ədəbi məktəb mövqeyinə qalxmışdır. Elə götürək Firdovsini və Xəyyamı" [6, s.53].

Kamran Məmmədov fars-tacik ədəbiyyatının görkəmli nümayəndəsi Əbülqasim Firdovsini nəhəng ədəbi simalardan biri kimi yüksək dəyərləndirir və göstərir ki, klassik Azərbaycan şeirinin qüdrətli nümayəndələri Firdovsi yaradıcılığına müraciətsiz keçinməmiş, nəinki şairin yaradıcılığını mütaliə etmiş, hətta onun yaradıcılığına nəzirələr yazmış, "Şahnamə"dən tərcümələr də etmişlər. Kamran Məmmədov bu məqamda ədəbiyyatşünas Əmin Abidin "Firdovsi və Azərbaycan ədəbiyyatı" məqaləsini xatırladır. Bununla yanaşı, şairin "Sultan Mahmud haqqında həcv" əsərinin Azərbaycan klassiklərinə örnək olması faktını da xüsusi vurğulayır. Füzulinin məşhur "Şikayətnamə" əsəri ilə həmin həcv arasındakı ideya yaxınlığını, hökmdara münasibətdəki kinayənin ortaqlığını xüsusi nəzərə çarpdırır. Tədqiqatçı eyni zamanda XIX əsr şairlərinin, xüsusilə Seyid Əzim Şirvaninin Nəsrəddin şahı həcv edən əsərində Firdovsi yaradıcılığının açıq-aydın təsirindən söhbət açır.

Kamran Məmmədov Xaqani Şirvaninin dövrdən, zəmanədən, ədalətsiz hökmdarlardan bəhs edən satiralarında Firdovsi yaradıcılığının təsirini də diqqətə çatdırır. Xüsusilə də, Xaqaninin "Paxılları məzəmmət", "Düşmənləri tənqid", "Meratos-səfa", "Həbsiyyə", "Zəmanədən və zəmanə əhlindən şikayətlər" və başqa şeirlərində Firdovsi irsindən bəhrələnmənin təsdiqini tapdığını diqqətə çatdırır. Tədqiqatçı klassiklərin yaradıcılığındakı satiranın spesifikasını xarakterizə edərkən bir məsələyə də xüsusi önəm verir ki, "tarixdəki, əfsanələrdəki şər işləri, pislikləri öz üzərinə götürmək yolu ilə müasir cəmiyyətdəki iyrənclikləri, fənalıqları ifşa klassik satiramızın xüsusiyyətlərindən biridir ki, həmin üsuldan XIX və XX əsr satirik şairlərimiz də istifadə etmişlər. Başqa sözlə desək, Firdovsinin də, Xaqaninin də, Sədinin də və öz yaradıcılıqlarında satiraya daha çox meyil edən Cəlaləddin Ruminin və Übeyd Zakaninin də şeirlərindəki bədii ifadə vasitələri o zamankı Şərq poetikası ilə bağlı idi.Onlardakı bədii ümumiləşdirmələr, satirik obrazlar və məcazlar daha çox əsatirlə, əfsanə-rəvayətlərlə, o cümlədən dini rəvayətlərlə süslənirdi" [6, s.58].

Kamran Məmmədov ədəbiyyatşünas M.Sultanovun "Xaqani Şirvani" kitabının [9, s.41] dinlə bağlı hissələri haqqında mülahizələrini belə əsaslandırır ki, tədqiqatçı yanlış qənaətlərə gəlir. Belə ki, Xaqaninin "Paxılları məzəmmət" şeirindəki istehzanı müstəqim mənada şərh edərək şairi "dini ehkamlara qarşı çıxan bir mütəfəkkir kimi" qiymətləndirmişdir. O göstərir ki, kitab müəllifi şeirdəki acı kinayəni bir yana qoyub, yanlış halda şairin peyğəmbər əleyhinə olduğunu yazmışdır.

Kamran Məmmədov yazır ki, Xaqani özündən sonra meydana gələn şairlər, əsasən də satirik şairlərimizə güclü təsir göstərən sənətkarlarımızdandır. Alim XIX–XX əsr şairlərinin Xaqani yaradıcılığından yetərincə bəhrələndiklərini göz önündə canlandıraraq yazır ki, "Çörək" şeirinin təsiri ilə Qasım bəy Zakir "Düyü", Seyid Əzim Şirvani "Buğda" şeirini yazmışdır. "Həbsiyyə"nin təsiri ilə həmin şairlərin dövrü, zəmanəni qırmanclayan şeirləri yaranmışdır. Daha sonra tədqiqatçı Zakirin "Bərdənin tərifi" şeirində "Mədain xərabələrinin", Sabirin "Əzrailin istefası" şeirində isə Xaqaninin "Rey şəhərinin iqlimini məzəmmət" şeirinin güclü təsiri olduğunu diqqətə çatdırır.

Tədqiqatçı dahi Azərbaycan şairi Nizami Gəncəvi yaradıcılığında satiranın mühüm yer tutduğunu xüsusi vurğulayaraq yazır: "Nizami haqqında nisbətən çoxli elmi əsərlər, məqalələr yazılmasına baxmayaraq, təəccüblü də olsa, deməliyik ki, hələ indiyə qədər şairin satirası haqqında danışılmayıbdır. Bunun bir səbəbi də, bizə elə gəlir ki, Azərbaycan ədəbiyyatında satiranın ancaq XIX əsrdən başladığı fikrinin ictimai elmimizdə möhkəm mövqe tutması ilə bağlıdır. Əlbəttə, o cəhəti də yaddan çıxarmaq olmaz ki, Xaqani, Nizami, Nəsimi, Füzuli kimi nəhənglərin yaradıcılığındakı ayrı-ayrı konkret problemlər də öyrənilməmişdir. "Nizamidə satira" ayrıca bir mövzu kimi tədqiq olunmağa layiqdir" [6, s.65]. Alim onu da nəzərə çarpdırır ki, Nizaminin bütün poemalarında, xüsusilə də "Sirlər xəzinəsi" poemasında satiranın ünsürləri ilə deyil, məhz özü ilə rastlaşırsan. Sonra tədqiqatçı "Sirlər xəzinəsi"ndəki "Nuşirəvan və bayquşların söhbəti", "Ovçu, it

və tülkü dastanı", "Meyvəsatanla tülkünün nağılı", "Zalım padşahla zahidin dastanı", "Harunəlrəşid ilə dəlləyin dastanı" kimi hekayətlərin əsl satira nümunəsi olduğunu göstərir. Xaqani ilə Nizami yaradıcılığındakı satiraların mahiyyətcə bir- birindən fərqləndiyini bildirən alim qeyd edir ki, "Əgər Xaqanidə satira ayrı-ayrı şeirlərdə güclüdürsə, Nizami satirik hekayə janrından istifadə edir. Lakin Nizaminin satirik hekayələrinin özünə məxsus xüsusiyyəti də vardır. Onları müasir mənada başa düşdüyümüz satira nümunələri ilə fərqləndirən cəhətləri yaddan çıxarmaq olmaz. Hər bir janrın dövrlə, zamanla əlaqəli inkişaf tarixi məlumdur. Nizaminin satirik hekayəsinə də həmin nəzərlə baxmaq vacibdir" [6, s.66].

Kamran Məmmədov "Xosrov və Şirin" poemasında Nizaminin "Kəlilə və Dimnə"dən məharətlə yararlandığını və Büzürgümidin dili ilə həmin kitabdan qırx təmsil söyləməklə Xosrovun timsalında dövrün hökmdarlarını ədalətli olmağa səslədiyini göstərir. Bununla yanaşı, tədqiqatçı "Leyli və Məcnun" poemasındakı "Qəzəbli itlər" adlı satirik hekayənin motivi və əsas qayəsi haqqında da maraqlı faktları xatırladır. "Yeddi gözəl" poemasında "Bəhramla qoca çoban" satirik hekayəsinin ibrətamiz rolunu açıqlayaraq onu təkcə tarixi-əfsanəvi əhvalat kimi deyil, çağdaş dövrlə yaxından səsləşən bir əsər kimi dəyərləndirir.

Alim Füzuli yaradıcılığında satiranın mühüm yer tutmasından söhbət açarkən qeyd edir ki, əsasən tədqiqatçılar şairin Nişançı paşaya yazdığı və "Şikayətnamə" adı ilə tanınan məşhur əsərini diqqət mərkəzində saxlamışlar. "Zamanımıza qədər bizi güldürməkdə və ağlatmaqda baqi qalan" (B.Çobanzadə), "başdan-başa acı qəhqəhələr, kin və nifrətlə atılmış oxlarla dolu" (A.Şaiq), "Azərbaycan dilində yaranan satiranın ilk nümunəsi"(H.Araslı), "dövrün acgöz, rüşvətxor, canavar iştəhalı hakimlərini damğalayan" (Mir Cəlal), "xəyanətkarlığı, rüşvətxorluğu, ədalətsizliyi satirik gülüşlə tənqid atəşinə tutan" (M.Quluzadə), "dərin bir kin və qəzəb hissilə, amansız kinayə və öldürücü gülüş ruhu ilə yazılmış" (H.Əfəndiyev) "Şikayətnamə" haqlı olaraq ictimai məzmunlu satiranın ən parlaq nümunəsi kimi təhlil edilir, "salam verdim,-rüşvət deyildir,-deyə almadılar" satirik misrasının xalq kütləsi içərisində geniş yayılmasının, zərbül-məsəl şəklinə keçməsinin köklü səbəbləri doğru-dürüst əsaslandırılır" [6, s.76]. Kamran Məmmədov göstərir ki, Füzulinin yaradıcılığında satira mühüm yer tutur. O yazır: "İndiyə qədər Füzulidə satira ayrıca tədqiqat obyekti kimi öyrənilmədiyindən, görkəmli füzulişünaslar isə şairin satirasından ancaq yeri gəldikcə bəhs etdiklərindən böyük sənətkarın satira xəzinəsi tamam-kamal araşdırılmamışdır. Füzulidə satirik nəsrlə ("Şikayətnamə") bərabər satirik qəzəllər, rübailər, qitələr, təmsil ("Pişiklə köpək"), alleqorik poemalar ("Bəngü Badə", "Söhbətül-əsmar") vardır. Biz hələ şairin bütün yaradıcılığına səpələnmiş satirik misraları, beytləri, bəndləri demirik" [6, s.76]. Ümumiyyətlə, Füzuli yaradıcılığında zahidə, vaizə, şeyxə, din dəllallarına, "cəhənnəm çarçılarına", geniş xalq kütləsi arasında fitnə-fəsad salanlara, bu dünyanı "qara pərdəyə" örtənlərə dərin nifrət vardır. Füzulidən başlayaraq XIX əsrə qədərki Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərində də satiraya rast gəlirik. Lakin onların yaradıcılığında satira Füzuli yaradıcılığındakı qədər qüvvətli olmamışdır.

Görkəmli tədqiqatçı XIX əsrin birinci yarısında Azərbaycanda maarifçi-satirik şeirin qüvvətlənib inkişaf etməsində Qasım bəy Zakir, Mirzə Şəfi Vazeh, Baba bəy Şakir, Abbasqulu ağa Bakıxanov, Mirzə Baxış Nadim kimi şairlərin xidmətlərini xüsusi dəyərləndirməklə yanaşı, satirik şeirlərə öz yaradıcılığında yer verən Məmmədcəfər Miskin, Aşıq Mahmud, Aşıq Hüseyn, Aşıq Musa, Aşıq Əziz kimi xalq aşıqlarının rolunu da ayrıca qeyd edir. Tədqiqatçı göstərir ki, həmin şairlərin bir çoxu Azərbaycan ədəbiyyatında satiranı qüvvətləndirmək üçün ardıcıl iş aparmışlar. Əlbəttə ki, satirik şeirin qüvvətlənib ədəbiyyatımızda cərəyan halına gəlməsində bu sənətkarların hamısı fəal rol oynamayıb. Kamran Məmmədov bu şairlər içərisində Qasım bəy Zakirin rolunu xüsusi qiymətləndirərək yazır: "Zakirin satiraları müstəqil ədəbi cərəyana çevrilən satirik şeirin vuran qəlbi və düşünən beyni olmuşdur, desək, heç də səhv etmərik. O da diqqətəlayiqdir ki, həmin işdə Mirzə Fətəli Axundov kimi dahi sənətkara müəllimliyi məhz Qasım bəy Zakir və Mirzə Şəfi Vazeh etmişdir" [6,s.84].

Kamran Məmmədov Zakiri, Vazehi və başqa şairləri satira yazmağa istiqamətləndirən səbəblərdən bəhs edərək yazır: “Şairləri satira yazmağa təhrik edən amillər yaşadıqları ictimai mühitdə baş verən hərc-mərclik, özbaşınalıq, qanunsuzluqlarla bağlıdır. Mühit sənətkarı sıxır, onu boğurdu. Belə bir cansıxıcı, darıxdırıcı mühitdə sənətkarın vəzifəsi, satiriklərimizin fikrincə, cəmiyyətdəki yaramazlıqlara atəş açmaq, dumanlı havanı dağıtmaq, zəhmətkeş xalqın sinə dolusu nəfəs almasına kömək etmək üçün faydalı və zəruri vasitələrdən-tənqiddən, satiradan istifadə etmək olmalıdır “[6,s.85].

Qasım bəy Zakir yazır:

*Neçələr silsileyi-təbimə təhrik verir,*
*Rişteyi nəzmə çəkəm yəni düri-qəltani.*
*Budu xahişləri kim, baxmayıb ağü bozuna,*
*Eləyim həcv tamam bayü gədavü xani* [10, s.385].

Kamran Məmmədov şeirdə işlənən həcv sözünün spesifik xüsusiyyətini açaraq yazır: “Zakir “eləyim həcv tamam bayü gədavü xani” dedikdə, biz buradakı “həcv” sözünü “satira” kimi qiymətləndirməliyik. Zakir və eləcə də onun müasirləri “satira” sözünü işlətməmişlər. Onlar satira və həcvi bugünkü mənada fərqləndirməmiş, “satiranı” da çox vaxt ədəbi bir irs kimi gələn və ədəbiyyatımızda geniş yayılan “həcv” deyə yazmışlar. Eləcə də buradan elə nəticə çıxmasın ki, biz ümumiyyətlə, satirik şeirin inkişafında müəyyən mərhələ təşkil edən həcvi satira ilə qarışdırırıq. Əsla! Həcvlərin yarı açıq-saçıq örtüyü altında çox zaman cəmiyyəti ələ salan, hakim sinifləri kəskin tənqid edən faydalı ictimai tənqidə də rast gəlirik” [6, s.86].

Satiriklər şeirin qarşısında ciddi tələblər qoyur, forma və məzmunun mükəmməl olmasını tələb edirdilər. Dövrün şairləri əsrlər boyu çeynənmiş qafiyələrdən əl çəkməyən müasirlərini hicrandan, vüsaldan, cənnətdən, cəhənnəmdən şeir quraşdıranları həqiqi, xalqa xidmət edən sənətkarlardan fərqləndirir, tənqid atəşinə tuturdular.

Q.Zakir, M.Ş.Vazeh, A.Bakıxanov, B.Şakir, M.B.Nadim və başqa sənətkarları satira yazmağa təhrik edən səbəblər silsiləsinin mərkəzində yaşadıqları cəmiyyətdəki haqsızlıqlar dururdu. Onlar xalqı zəlalətə salanların pozulmuş əməl və əxlaqına dözə bilmir, ifşaya və ittihama əl atırdılar. Satiriklərimiz həcvin, tənqidi şeirin, satiranın müasirləri tərəfindən qiymətləndirilmədiyini, həzm edilmədiyini gözəl anlayırdılar. Onlar gördükləri həqiqətləri şeir dili ilə bəyan etməyi, xalqa çatdırmağı, cəmiyyətin bədəninə yara salmağa çalışan həşəratları rüsvayi-cahan etməyi hava və su kimi lazımlı bilirdilər. Öz fikir və düşüncələrini həqiqətin dili ilə bəyan etdikləri üçün satiriklərin qarşısına mütləqiyyət üsul-idarəsinin, çarın hiyləgər, ikiüzlü siyasətinin ciddi maneələri çıxırdı, buna görə də sözləri açıq şəkildə deməyə ehtiyat edirdilər.

*Danışma, eşitmə, görmə əmr etsən,*
*Bağlaram dil, qulaq, gözümü həmən,*
*Əmr etsən anlama, əfv et hökmdar,*
*Bu işdə əlimdə deyil ixtiyar* [3,s.207-208].

Kamran Məmmədov Azərbaycan ədəbiyyatı tarixində realist ədəbi məktəbin formalaşmasını, mükəmməl estetik-fəlsəfi, nəzəri əsaslarının işlənib hazırlanmasını Mirzə Fətəli Axundovun adı ilə bağlayaraq yazır: “Axundovun realizm haqqındakı fikirlərini heç cürə satira haqqındakı fikirlərindən ayırmaq olmaz. Satira Axundovun rəyincə, realizmin əsas tərkib hissəsini təşkil edir. Həqiqətin gözünə dik baxmaq, ictimai məzmun və satiranı ön plana çəkmək, xalqın tərbiyələnməsinə kömək etmək, Axundova görə bədii əsərin əsas vəzifələrindəndir... Böyük mütəfəkkirin tənqidi-estetik fikirləri də fəaliyyətinin başqa sahələri kimi demokratik mahiyyət

daşıyırdı. O, geniş kütlələrin şüuruna təsir edəcək sadə, təbii və təsirli bir dildə yazılmış dolğun məzmunlu, ictimai mənalı realist sənət uğrunda çalışır, bu işdə tənqid və satiraya geniş meydan verirdi” [6, s.92]. Bu faktı Mirzə Fətəli Axundov vaxtilə “Təmsilat”ı fars dilinə tərcümə edən Tehran sakini Mirzə Məhəmməd Cəfərə göndərdiyi məktubda bir daha təsdiqləyirdi: “...Xalqı tərbiyələndirmək, həmməzhəblərimizin əxlaqını saflaşdırıb islah etmək , dövləti nizama-intizama salmaq...üçün tənqiddən faydalı heç bir vasitə ola bilməz” [1, s.246]. Axundov öz məktubunda vaiz və tənqidçi, moizə və tənqid arasındakı fərqləri də yazıb göstərirdi. Yazıçının fikirlərinə haqq qazandıran Məmməd Cəfər yazır: “Tənqid siyasi azadlığın böyük və qüvvətli silahıdır. Moizə və nəsihət isə böyük mütəfəkkirin nəzərində siyasi kütlüyə və siyasi tənbəlliyə səbəb olan bir tərbiyə üsuludur. Tənqid edən xalqın səadətini nəzərə alaraq tənqid edir, nəsihət və moizə edənlər isə öz mənfəətlərini güdərək xalqın başını yastıqlamağa çalışırlar. Bu məntiqə əsaslanaraq Mirzə Fətəli bu nəticəyə gəlir ki, tənqidçiyə ədavət bəsləmək ancaq nadanlıq əlaməti sayıla bilər. Əksinə, namuslu, vicdanlı tənqidçilərdən razı qalmaq, ağıllı adam olmağın ilk əlamətidir... Tənqid həqiqəti göstərir, yaxşını, pisi ayırd edir, nəsihət və moizə isə həqiqəti ört-basdır edir, ...xalqı itaətə, müti təbiətliliyə öyrədir, tənqid isə mübarizəyə, üsyana və nəhayət inqilaba, hüquq, azadlıq, istiqlaliyyət uğrunda mübarizəyə çağırır” [4, s.49].

Kamran Məmmədov M.F.Axundovun satira haqqında fikirlərini ümumiləşdirərək yazır ki, “Axundovun satira haqqında gəldiyi elmi nəticələrdən biri belə idi ki, sənətkar həqiqətin xilafına şeir yazıb öz vicdanını ləkələməməlidir; əgər o, “xətərnak” dövrdə yaşayır və “canından qorxursa”, həqiqəti başqa yolla söyləməli, ali fikirlərini “tülkü və çaqqal əfsanələri” içərisində gizlətməli, “ezop dili”ndən istifadə etməlidir” [6, s.97].

Gülüşü qanunauyğun şəkildə yaradan cəmiyyətin öz ictimai inkişafıdır. Gülüşün böyük bir gücə malik olması haqqında A.V.Lunaçarskinin fikirləri maraq doğurur. O yazır: “Gülüş təkcə qüvvət əlaməti deyil, özü bir qüvvətdir, yenilik öz gücünü duyduqca, gülüş nifrətli olur. Öz gücünü duyan bu şən, bu hiddətli gülüş isə əsil silah kimi zəruridir...Gülüş keçmişin qara tabutuna vurulan möhkəm mismardır...Gülüş böyük sanitardır... Gülüş cəsarətlidir, üsyankardır, gülüş öz zəhərli oxlarını sərrast tuşlayır, möhkəm vurur və öldürür” [5, s.59-60].

Kamran Məmmədov XIX əsrin ikinci yarısında yazıb-yaratmış görkəmli maarifçi-satirik şair Seyid Əzim Şirvani yaradıcılığına xüsusi diqqət yetirir, onun şahidi olduğu acınacaqlı hadisələri vətəndaşlıq yanğısı ilə qələmə aldığını və “Əkinçi”, “Ziya” kimi mətbuat orqanlarında çap etdirdiyini göstərir. Seyid Əzim Şirvani sənətdə satira və ifşanı, rədd və inkarı tərəqqi və mədəniyyətə çatmaq üçün əsas vasitələrdən biri hesab edirdi. O, xurafat və mövhumat aləmində “qəpiyə milləti satanları”, “adını müsəlman qoyub, öz din qardaşlarının qanını soranları” lənətləyirdi. Şair yaşadığı cəmiyyətin və mühitin əsl mahiyyətini dərk etmiş, istər tənqidi-maarifçi şeirlərində, istərsə də satira və təmsillərində dözülməz yaşam tərzini dəyişdirməyə, yeniləşdirməyə çalışmışdır.

S.Ə.Şirvani Azərbaycan və eləcə də Şərq ədəbiyyatına yaxından bələd olan, Firdovsi, Xəyyam, Sədi, Hafiz kimi fars-tacik klassiklərini dərindən mütaliə edən və onların əsərlərinə nəzirələr yazan şairlərdəndir. O, öz yaradıcılığında “Şahnamə”, “Gülüstan” və “Bustan” əsərlərinə dönə-dönə müraciət etmişdir. Xaqani, Nizami, Nəvai, Füzuli kimi şairləri ustadı kimi yüksək dəyərləndirmişdir.

## Nəticə / *Conclusion*

Kamran Məmmədovun yaradıcılığında “XX əsr Azərbaycan gülüşü” (yaxud bir məclisdə on iki kişinin söhbəti) monoqrafiyasının önəmli yeri vardır. Müəllif əsərdə böyük satirik şairimiz Mirzə Ələkbər Sabirin “Bir məclisdə on iki kişinin söhbəti” adlı proqram xarakterli şeirinin forma-struktur özəlliklərindən məharətlə yararlanmış və on iki satirik sənətkarın yaradıcılığını ali

məktəbdə dərs deyən alimin mühazirələri şəklində oxuculara təqdim etmişdir. Hər dərsdə bir satirikin həyat və yaradıcılığından söhbət açılır. Tədqiqatçı XX əsr satirasının əsas xüsusiyyətlərini M.Ə.Talıbov, Z.Marağayi, N.Vəzirov, C.Məmmədquluzadə, M.Ə.Sabir, N.Nərimanov, Ə.Haqverdiyev, Ə.Nəzmi, Möcüz, Ə.Qəmküsar, Ü.Hacıbəyli, Y.V.Çəmənzəminli və başqalarının yaradıcılığı fonunda açıqlayır. K.Məmmədov XX əsrin əvvəllərindəki Azərbaycan gülüşü deyərkən ilk növbədə satiranı nəzərdə tutur. O göstərir ki, bu dövrdə satira şeirdə, nəsrdə, dramaturgiyada özünün yüksək mərhələsinə gəlib çatmış, əsrin ilk mərhələsində “Molla Nəsrəddin” ədəbi məktəbi yaranmış və satiranın sonrakı inkişafında mühüm rol oynamışdır.

Kamran Məmmədov çox doğru vurğulayır ki, “yaxşı satira nümunəsi heç də hər hansı qiymətli elmi kəşflərdən az əhəmiyyətli deyildir. Satira xalqın mənəvi xəstəliklərini müalicə üçün həmişə öz gücünü göstərmiş və indi də göstərməkdədir”. XX əsrin əvvəllərində genişlənən satiranın əsas xarakterini verən alim yazır: “Satiriklər bir qayda olaraq cəmiyyət üçün fəlakətli ola bilən ictimai hadisənin nəticəsini başqalarından daha tez hiss edir, onu qabaqcadan ifşaya əl atırlar. Satira heç bir köhnəliyə, durğunluğa dözməyərək zəhmətkeş xalqın qüvvətli düşmənə kinini, nifrətini gülüşlə ifadə etmişdir” [7, s.4].

XX əsr Azərbaycan ədəbiyyatının ən qüvvətli və əsas aparıcı qolunun satira olduğunu vurğulayan alim “Molla Nəsrəddin”, xüsusilə də Sabir və C.Məmmədquluzadə kimi nəhənglərin simasında satiranın bütövlüyünü, hər cür yarımçıqlığa qarşı mübarizədə dağ timsalında dəyanət göstərdiyini nəzərə çarpdırır. Məhz satiranın bu məzmun zənginliyi haqqında Əli Nazim yazır: “Molla Nəsrəddin komizmi bütün inkaredici kəskinliyinə baxmayaraq, dərin bir lirikaya, oxucunu təsvir olunan varlıqdan çıxarıb təmiz bir aləmə yüksəldən bir lirikaya və hətta romantikaya da malikdir. Bəlkə də bu çoxlarına bir paradoks kimi görünə bilər: “komizm, lirika, satira və romantika?” [8.s.173-174].

Kamran Məmmədov öz fundamental tədqiqatları ilə Azərbaycan ədəbiyyatında böyük inkişaf və təkamül yolu keçən satiranın folklorda və klassik ədəbiyyatda bütün zamanlarda mövcudluğu fikrini konkret fakt və nümunələr əsasında şərh etmiş, onun spektrlərini ən incə qatlarına kimi açmağa müvəffəq olmuş, söz sənətkarlarının yaradıcılığı fonunda satiranın keçdiyi tarixi mərhələləri ardıcıl, sistemli şəkildə izləmiş və orijinal əsərlər yaratmışdır.

Azərbaycan ədəbiyyatının bütöv bir epoxasını yaradıcılıq orbitinə daxil edən, ədəbiyyatşünaslığımızın xəzinəsini ölməz əsərlərlə zənginləşdirən Kamran Məmmədovun böyük zəhmətin və istedadın nəticəsi kimi ərsəyə gətirdiyi dəyərli tədqiqatları hələ neçə-neçə əsrlərin hüduduna yetəcək.

### Ədəbiyyat / *References*


1. Axundov, M.F. Əsərləri. III cild. – Bakı, 1962.
2. “Azərbaycan” məcmuəsi, 1966, №12.
3. Bakıxanov, A. Bədii əsərlər. – Bakı, 1964.
4. C.Məmməd. Tənqid və moizə. “Ədəbiyyat məcmuəsi”. Nizami adına Ədəbiyyat İnstitutunun Əsərləri. II cild. – Bakı, 1946.
5. Lunaçarskiy, A.V. Teatr i revolyutsiya. – Moskva, 1924.
6. Məmmədov, K. XIX əsr Azərbaycan şeirində satira. – Bakı: Elm, 1975.
7. Məmmədov, K. “XX əsr Azərbaycan gülüşü” (yaxud bir məclisdə on iki kişinin söhbəti). – Bakı: Yazıçı, 1989.
8. Nazim, Ə. Seçilmiş əsərləri. – Bakı: Yazıçı, 1979.
9. Sultanov, M.S. Xaqani Şirvani. – Bakı: Azərnəşr, 1954.
10. Zakir, Q. Əsərləri. – Bakı, 1964.

# Вопросы сатиры в научном наследии Камрана Мамедова

**Гульбаниз Бабаева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: gulbeniz-babayeva@mail.ru

**Резюме.** В статье анализируются труды, связанные с сатирой, занявшие особое место в многогранном научном творчестве известного учёного-литературоведа Камрана Мамедова. Он автор монографических исследований и множества литературно-критических статей в области азербайджанской литературы XIX–XX веков. В научной деятельности учёного особое место представляют значительные труды, связанные с сатирой. Его монографии «Сатира в азербайджанской поэзии XIX века» и «Смех в азербайджанской поэзии XX века» представляют собой ценные образцы нашего литературоведения и сохраняют свою актуальность и в наше время. В этих значительных работах Камран Мамедов приводит свойственные характеристики каждого сатирического жанра, рассматривает сатирические жанры сквозь призму осмысления на основе конкретных образцов из фольклора и классической литературы.

Камран Мамедов привлекает внимание к заключению, что одним из источников азербайджанской сатиры XIX–XX веков является классическая письменная литература. К письменной литературе автор относит не только восточную литературу с входящей в неё азербайджанской литературой с такими великими поэтами, как Хагани, Низами, Насими, Физули, но имеет в виду и великих Фирдоуси, Саади, Хафиза, и подчёркивает, что без них восточная поэзия была бы не такой блистательной. Учёный также связывает формирование реалистической литературной школы, создание прочной эстетико-философской и теоретической основы в истории азербайджанской литературы с именем М.Ф.Ахундова. Камран Мамедов считает сатиру мощной и ведущей ветвью азербайджанской литературы XX века, которая достигла вершин и благодаря «Молла Насреддину», в особенности таким выдающимся личностям, как М.А.Сабир и Дж. Мамедгулузаде.

**Ключевые слова:** Камран Мамедов, азербайджанская литература XIX-XX веков, М.Ф.Ахундзаде, Дж.Мамедгулузаде, М.А.Сабир, сатира, фольклор, классическая литература